# V-IX SİNİFLƏRİN AZƏRBAYCAN TARİXİ KURSLARINDA AZADLIQ VƏ MİLLİ AZADLIQ UĞRUNDA MÜBARİZƏYƏ DAİR BİLİKLƏRİN VERİLMƏSİ PROSESİNDƏ ŞAGİRDLƏRDƏ VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİNİN FORMALAŞDIRILMASI

**Səidə Nəbiyeva,**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
E-mail: nabiyeva.22@mail.ru

**Rəyçilər:** *ped.elm.dok.*. M.M. Əmirov,
*ped.ü.fəls.dok.* L.N. Nağıyeva

***Açar sözlər:*** *milli azadlıq, vətənpərvərlik, təhsil, tərbiyə, dərsliklər, tarixi bilik, Azərbaycan tarixi*
***Key words:*** *national liberty, patriotism, education, upbringing, textbooks, historical knowledge, history of Azerbaijan*
***Ключевые слова:*** *национальная свобода, патриотизм, образование, воспитание, учебники, исторические знания, история Азербайджана*

Azərbaycan unikal bir ərazidə yerləşir. Onun həm əhalisi, həm coğrafi mövqeyi, həm də təbii şəraiti, eləcə də yeraltı və yerüstü sərvətləri onun qorunub saxlanılmasını tələb edir. Bu gözəl məkanı daimi olaraq qoruyub saxlamaq və onu gələcək nəsillərə ötürmək üçün ölkə vətəndaşlarında vətən sevgisini, vətəni qoruyub saxlamağın zəruriliyini formalaşdırmaq lazımdır. Ölkə vətəndaşlarında vətənpərvərliyin formalaşdırılması həm ailələrin, həm də təhsil işçilərinin mühüm vəzifələrindən biridir. Bu baxımdan ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan tarixi kurslarının imkanlarından geniş istifadə olunmalıdır. Bu məsuliyyətli vəzifənin yerinə yetirilməsində ölkəmizdə təhsillə bağlı ayrı-ayrı qurumlar ümumtəhsil məktəblərində şagirdlərin vətənpərvərlik tərbiyəsini daim diqqət mərkəzində saxlayırlar. Təhsil qanunumuzda eləcə də Təhsil Nazirliyi tərəfindən qəbul edilmiş direktiv sənədlərdə də orta məktəb şagirdlərinin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin zəruri olduğu qeyd edilir. Respublikamızda həyata keçirilən təhsil islahatlarının əsas məzmununda da bu məsələ xüsusi qeyd olunur (1, 119).

Bu məqsədlə tarix müəllimi tədris ilinin başlanğıcında illik planlaşdırmanı hazırlayarkən Vətən tarixinin tədrisində şagirdlərdə vətənpərvərlik tərbiyəsini formalaşdıracaq mövzuların imkanlarını araşdıraraq onların tədrisini xüsusi diqqət mərkəzində saxlamalıdır. Dərslərdə vətənpərvərliklə bağlı sxemlərdən, cədvəllərdən, şəkillərdən, portretlərdən, tədris filmlərindən, didaktikanın tələbləri əsasında istifadə edilməlidir.

Şagirdlərin vətənpərvərlik tərbiyəsi sahəsində tədqiqatlar aparan mütəxəssislər də həmin problemə öz münasibətlərini bildirmişlər. Belə ki, M.N. Ağayev yazır: ”Vətənin qüdrətli olması gənclərin Vətənə münasibətindən ,onların hansı yöndə tərbiyə edilməsindən bilavasitə asılıdır” (2, 8). Digər müəllif S. Əliyev yazır: “respublikamızın uğurlu inkişafı ilk növbədə gənc nəslin təhsilindən onların dövlətimizə, xalqımıza bağlılığından, əsl vətəndaş olaraq yetişməsindən çox asılıdır. Gənc nəslin vətənpərvərlik tərbiyəsi bütün dövrlərdə aktual olmuşdur” (3, 50-52) Lakin hazırkı dövrdə doğma torpaqlarımızın erməni işğalı altında olduğu və düşmənə qarşı mübarizə aparıldığı bir şəraitdə şagirdlərin vətənə məhəbbət, yurda, xalqa sevgi ruhunda tərbiyə edilməsi olduqca vacibdir. Müstəqil dövlətimizin ərazi bütövlüyü, suverenliyi, milli sərhədlərimizin toxunulmazlığı məsələlərinə tarixin tədrisində xüsusi diqqət yetirilməlidir.

Müasir dövrdə təhsilimizin qarşısında qoyulmuş şəxsiyyətyönlü, nəticəyönlü yüksək intellektual səviyyəli vətəndaşların formalaşdırılması kimi mühüm vəzifələri yerinə yetirmək üçün təlim və tərbiyənin kompleks şəkildə təmin olunmasına nail olmalıyıq.

Bu baxımdan pedaqoji elmlər doktoru, professor, əməkdar elm xadimi F. Rüstəmov yazır: “şagirdlərin vətənpərvərlik tərbiyəsi milli-mənəvi dəyələr zəminində inkişaf etdirilməlidir. Bu isə öz növbəsində yetişməkdə olan gənc nəslə tarix elminin əsaslarını dərindən mənimsətməklə yanaşı, eyni zamanda zəngin mənəviyya-

ta, vətəninə, xalqına sədaqətli, yüksək əxlaqi keyfiyyətlərə, əməksevərliyə malik həqiqi vətənpərvərlər formalaşdırır. Şagirdlərdə vətənpərvərlik hisləri aşılamaq onların şəxsiyyətinə təsir etmək deməkdir" (4, 6,10) .

Cəmiyyətdəki sosial-iqtisadi eləcə də siyasi cəhətdən dəyişikliklər vətənpərvərlik əlamətlərinin keyfiyyətcə yeniləşməsinə səbəb olmuşdur. Vətənpərvərlik milli dövlətçilik ideologiyasının tərkib hissəsi olub çox böyük və geniş məfhumdur.

Məlumdur ki, metodik ədəbiyyatda tərbiyəedici təlimə geniş yer verilir. Bu işi uğurla həyata keçirmək üçün tarixin tədrisi böyük imkanlara malikdir. Tarix fənni şagirdlərin mənəvi tərbiyəsində, onların vətənpərvər ruhda yetişməsində, vətənə, dövlətə sədaqət hissinin aşılanmasında xüsusi rol oyanır. Tarix dərslərində tərbiyə işi elə təşkil edilməlidir ki, şagirdlər yaşadıqları ölkəni inkişaf etdirmək, qorumaq məsuliyyətini dərk etmək qənaətinə gəlsinlər. Şagirdlərin vətənpərvərlik tərbiyəsi Azərbaycanın qədim tarixini, onun misilsiz qəhrəmanlıqlar göstərmiş igidlərini, tarixi şəxsiyyətlərini öyrənməyi tələb edir. Tarix müəllimləri fənnin təhsil və tərbiyə vəzifələrini uğurla həyata keçirərək şagirdlərin hərtərəfli inkişafını təmin etməlidirlər. "Vətənpərvərlik tərbiyəsinin məqsədi, mahiyyəti yalnız tərbiyə edən, onu şagirdlərdə aşılayan tərəfindən deyil, tərbiyə olunan tərəfindən də dərk edilməlidir. Ümumtəhsil məktəblərində tərbiyə işi bir qayda olaraq ayrı-ayrı fənlərin tədrisi zamanı mövzuların tərbiyə imkanlarından istifadə edilərək şagirdlərdə vətənpərvərlik hisləri aşılanır. Tarix, insan və cəmiyyət, əmək, ibtidai hazırlıq və başqa fənlərin tədrisi qeyd olunan məsələ ilə əlaqədar böyük imkanlara malikdir" (5, 11).

Ümumtəhsil məktəblərinin Azərbaycan tarixi dərsliklərində azadlıq və milli azadlıq uğrunda mübarizəyə dair çoxsaylı mövzular var. Həmin mövzuların imkanlarını 1 saylı cədvəldə ümumiləşdirilmiş şəkildə vermişik.

Cədvəl 1

| V sinif | VI sinif | VII sinif | VIII sinif | IX sinif |
|---|---|---|---|---|
| 1.Azərbaycanın ən qədim dövləti .<br>2. Qaniçən Kiri kim məğlub etdi.<br>3. Cavanşir ; Qırx il kölə kimi yaşamaqdansa".<br>4. Şəmsəddin Eldəniz necə Azərbaycan hökmdarı oldu.<br>5.İlk müstəqil Azərbaycan xanlığı .<br>6. Milli mətbuatımızın banisi .<br>7.Səttarxan .<br>8. "Bir kərə yüksələn bayraq" .<br>9. Azərbaycan ordusunu yaradanlar<br>10. Qardaş köməyi.<br>11. Dirçəliş.<br>12. Qanlı Yanvar.<br>13. İstiqlalımızın bərpası<br>14. Müstəqil Azərbaycanın Qurucusu | 1. 1.Azərbaycan qədim ölkədir.<br>2. Manna dövlətinin yaranması və yüksəlişi.<br>3. Atropatena dövləti.<br>4. Albaniya övlətinin yaranması.<br>5.Albanların yadellilərə qarşı mübarizəsi. | 1. 1. Azərbaycan –Albaniya hökmdarı Cavanşir.<br>2. Babəkin başçılığı altında azadlıq hərəkatı .<br>3. Müstəqil dövlətçilik ənənələrinin dirçəlişi.<br>4.Xudafərin körpüsünün birləşdirdiyi iki Azərbaycan dövləti .<br>5. Səlcuq sarayından müstəqil hakimiyyətə<br>6. Hökmdarın müdrikliyi və yerli hakimin | 1. Azərbaycan torpaqlarının azad edilməsi.<br>2. Nadir xan Əfşar Səfəvi dövlətinin sərhədlərini bərpa edir .<br>3.Azərbaycanda ilk müstəqil xanlıq.<br>4.Birləşdirmə siyasətinin ikinci mərhələsi .<br>5. Azərbaycan torpaqlarının birləşdirilməsin də son təşəbbüs. | 1. Millətin formalaşması.<br>2.Xalq hərəkatı.<br>.3.Azadlıq hərəkatının yeni mərhələsi.<br>4.Azərbaycanlı əhaliyə qarşı ermənilərin törətdikləri kütləvi qırğınlar. Milli demokratik hərəkat.<br>5. Azərbaycan Birinci Dünya müharibəsi illərində<br>6. Şimali Azərbaycanda türk-müsəlman əhaliyə qarşı soyqırımlar.<br>7. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması. |

| | | | | |
|---|---|---|---|---|
| 15. Ulu Öndərin yolu ilə. | | inadlı mübarizəsi.<br>7. Qaraqoyunlu dövləti.<br>8. Ağqoyunlu Uzun Həsənin dövlət siyasəti. | | 8. Dövlət quruculuğu sahəsində tədbirlər .<br>9. Erməni işğalçılarına qarşı mübarizə .<br>10.Sovet rejiminə qarşı xalq hərəkatı.<br>11.Milli oyanış cəhdləri.<br>12.Ərazi bütövlüyü və milli hüquqların qorunması uğrunda mübarizə.<br>13.Dövlət müstəqilliyinin bərpası.<br>14.Qurtuluş hərəkatı .<br>15.Dövlət müstəqilliyini möhkəmləndirmək tədbirləri.<br>16. Cənubi Azərbaycanda milli azadlıq . |

Tarix dərslərində fəal təlim metodlarından istifadə etməklə dərsi daha səmərəli şəkildə qurmaq olar. Fikrimizi əsaslandırmaq üçün VII sinif Azərbaycan tarixi kursunda “Azərbaycan-Albaniya hökmdarı” mövzusuna müraciət edərək beyin həmləsi üsulu ilə dərs nümunəsi təqdim edirik. Dərsin məqsədi VII əsrdə Azərbaycan Mehranilər sülaləsinin görkəmli nümayəndəsi Cavanşirin daxili və xarici siyasəti, Bizans və Xəzər dövlətləri ilə münasibətləri qaydada saxlamağının, onun ölkədəki daxili sabitliyi qoruyub saxladığı fikrinin şagirdlər tərəfindən mənimsənilməsinə nail olmaq. Müəllim yeni materialın öyrədilməsində Cavanşirin simasında igid, uzaqgörən, ölkəsinin azadlığı uğrunda mübarizə aparan hökmdar obrazını şagirdlərin təsəv-vüründə formalaşdırır. Bu mövzunun tədrisi zamanı müəllim Albaniya dövlətinin siyasi xəritəsini lövhədən asaraq şagirdlərə göstərir. Şagirdlər hökmdarı xarakterizə edən müxtəlif fikirlər irəli sürürlər. Eyni zamanda Cavanşirin şagirdlər tərəfindən çəkilmiş portreti, onun şəxsiyyəti və mübarizliyi, dövlətin sabitliyi uğrunda ərəblərə, xəzərlərə qarşı mübarizəsini əks etdirən suallar lövhədə qeyd olunur. Müəllim qoyulmuş suallar ətrafında şagirdləri diskussiyalar aparmağa səsləyir.

Müəllim Cavanşirin simasında şagirdlərə vətənpərvər, igid, qorxmaz, öz vətəninə bağlı, diplomatik bacarıq nümayiş etdirməklə öz vətənini ən çətin zamanlarda qorumağı bacaran hökmdar obrazı formalaşdırır. Bu məlumatlar şagirdlərin qəlbinə və ağlına təsir göstərərək onlarda iftixar hissini gücləndirir.

Nəticə olaraq deyə bilərik ki, hər bir tarix müəllimi çalışmalıdır ki, xalqın azadlıq və sosial rifahı ilə bağlı mövzuların tədrisində şagirdlərin vətənpərvərlik tərbiyəsini xüsusi diqqətdə saxlayaraq vətənə və xalqa bağlılığın insan həyatı üçün nə qədər dəyərli olduğunu aşılamalıdır. Tərbiyə işindəki inandırma və alışdırma metodlarından səmərəli istifadə etməlidir. Vətənə layiqli övladlar və nümunəvi vətəndaşlar formalaşdırmalıyıq.

**Məqalənin yeniliyi** ondan ibarətdir ki, Vətən tarixinin tədrisində milli azadlıq uğrunda mübarizəyə dair mövzuların tədrisində təlimin tərbiyəedicilik məqsədinin yüksəldilməsi üzrə iş sistemi yaradılmışdır.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, yaradılan iş sistemi tarixin tədrisi metodikası elminin nəzəri əsaslarını daha da zənginləşdirəcək.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, materialda irəli sürülən müddəalardan ümumtəhsil məktəblərinin tarix müəllimləri gündəlik pedaqoji fəaliyyətlərində istifadə edə biləcəklər.

## ƏDƏBİYYAT

1. Cəbrayılov İ.H. Müasir təhsil: axtarışlar və perspektivlər. Bakı: Mütərcim, 2013.

2. Ağayev M.N. Humanitar fənlərin tədrisi prosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi. Bakı: Müəllim. 2004.

3. Əliyev S. Tarix dərslərində vətənpərvərlik tərbiyəsi // Təhsil, mədəniyyət, incəsənət, 2003, № 4

4. Rüstəmov F.A Məktəblilərin vətənpərvərlik tərbiyəsi Bakı: ADPU, 1999.

5. Paşayev T.Ə. Tarix-diyarşünaslıq materialları əsasında gənc nəslin vətənpərvərlik tərbiyəsi. Bakı: Nərgiz, 2005.

**С.В. Набиева**

## ФОРМИРОВАНИЕ ПАТРИОТИЧЕСКОГО ВОСПИТАНИЯ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ПЕРЕДАЧИ ЗНАНИЙ О БОРЬБЕ ЗА СВОБОДУ И НАЦИОНАЛЬНУЮ НЕЗАВИСИМОСТЬ НА УРОКАХ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В V-IX КЛАССАХ

### *РЕЗЮМЕ*

В статье повествуется о формировании патриотического воспитания учащихся в процессе передачи знаний о борьбе за свободу и национальную независимость на уроках Истории Азербайджана в V-IX классах. Автором отмечено, что в учебниках по Истории Азербайджана очень много параграфов, посвященных данной теме. Возможности данных тем обобщены и представлены в статье в виде схем. В заключение статьи отмечается, что учителя истории при преподавании тем, о борьбе за свободу и независимость народа, должны стараться формировать у учащихся патриотизм, чувство любви к Родине, к народу.

**S. V. Nabiyeva**

## THE FORMATION OF PATRIOTIC EDUCATION PUPIL`S EDUCATION IN THE PROCESS OF GIVING KNOWLEDGE FOR FREEDOM AND NATIONAL LIBERTY OF AZERBAIJAN IN THE V-IX GRADES HISTORY COURSES OF SECONDARY SCHOOLS

### *SUMMARY*

The essence of the problem, its social, economic, political and moral significance has been based on, too. The level of the development of the issue has been commented on. Examining the capabilities of topics devoted to the struggle for freedom and national liberty in our nations history has been studied in the V-IX classes of the Azerbaijan`s history text books. The problem solving example lesson has been given.

**Redaksiyaya daxil olub:** 10.10.2017